BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ VƏ MULTİKULTURALİZM MƏRKƏZİ

TƏHLİL

ABŞ-Azərbaycan strateji tərəfdaşlığı: Əsas məqamlar

Mətin Məmmədli

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

OKTYABR 2026

ABŞ-Azərbaycan strateji tərəfdaşlığı: Əsas məqamlar

Beynəlxalq münasibətlərdə baş verən dəyişikliklər həm böyük güclər arasındakı rəqabətə, həm də regional dövlətlərin xarici siyasət imkanlarına təsir göstərir. Təhlükəsizlik artıq təkcə hərbi-siyasi məsələlərlə məhdudlaşmır; enerji təchizatı, ticarət yolları, rəqəmsal infrastruktur və strateji xammal da bu anlayışın mühüm hissəsinə çevrilib. Belə şəraitdə Cənubi Qafqazın əhəmiyyəti artır. Lakin regionun üstünlüyü yalnız coğrafi mövqeyində deyil, həmin mövqedən istifadə etməklə etibarlı nəqliyyat, enerji və kommunikasiya əlaqələri qurmaq imkanındadır.

Azərbaycanın son illərdə regionda oynadığı rol bu dəyişikliklərlə sıx bağlıdır. Avropa, Xəzər hövzəsi və Mərkəzi Asiya arasında əlaqələrin qurulmasında iştirakı, Avropanın enerji təhlükəsizliyinə töhfəsi və müstəqil xarici siyasəti ölkənin tərəfdaşları üçün əhəmiyyətini artırır. ABŞ baxımından Azərbaycanla əməkdaşlıq regional sabitliyə, eləcə də alternativ təchizat və nəqliyyat marşrutlarının inkişafına xidmət edə bilər. Bununla belə, maraqların bir sıra sahələrdə üst-üstə düşməsi bütün regional və beynəlxalq məsələlərdə mövqelərin eyni olması demək deyil.

2025-ci il avqustun 8-də Vaşinqtonda Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün işçi qrupunun yaradılmasına dair memorandum, 2026-cı il fevralın 10-da isə Bakıda Strateji Tərəfdaşlıq Xartiyası imzalandı. Bu sənədlərlə ikitərəfli münasibətlər yeni siyasi və institusional çərçivə qazandı. Xartiyada regional nəqliyyat əlaqələri, enerji və tranzit, süni intellekt, rəqəmsal infrastruktur və təhlükəsizlik əməkdaşlığı əsas istiqamətlər sırasında göstərilir.[1] Beləliklə, tərəflər arasında müzakirə olunan məsələlərin dairəsi genişlənib. Ancaq sənədin imzalanması hələ layihələrin maliyyələşdirilməsi və həyata keçirilməsi, yaxud uzunmüddətli nəticələrin əldə olunması demək deyil. Ona görə də münasibətlərdəki yeni mərhələni yalnız siyasi yaxınlaşma və ya iqtisadi əməkdaşlıq kimi dəyərləndirmək düzgün olmaz. Qarşıdakı əsas vəzifə siyasi razılaşmaları işlək mexanizmlərə çevirmək, tərəflərin gözləntilərini uzlaşdırmaq və mümkün riskləri nəzərə almaqdır.

ABŞ-ın Cənubi Qafqaz siyasətində Azərbaycanın yeri

ABŞ-ın Cənubi Qafqaza yanaşmasında geosiyasi, təhlükəsizlik və iqtisadi maraqlar bir-biri ilə bağlıdır. Xəzər və Qara dəniz hövzələri arasında əlaqələrin genişləndirilməsi, beynəlxalq ticarət üçün alternativ yolların yaradılması və Mərkəzi Asiya bazarlarına çıxış bu siyasətin iqtisadi tərəfini təşkil edir. Bununla yanaşı, regional sabitlik, sərhədlərin açılması və infrastrukturun qorunması olmadan belə layihələrin davamlı fəaliyyəti çətin görünür. Orta Dəhliz və Xartiyada nəzərdə tutulan TRIPP təşəbbüsü də təkcə yükdaşımaların sürətləndirilməsi ilə məhdudlaşmır. Nəqliyyat,

[1] https://president.az/az/articles/view/71553

enerji, rəqəmsal məlumat mübadiləsi və gömrük prosedurlarının əlaqələndirilməsi daha geniş iqtisadi əməkdaşlığa yol açа bilər. Bunun nəticəsi isə daşınma xərclərindən, marşrutların buraxılış qabiliyyətindən, sərhəd-keçid müddətlərindən və hüquqi-maliyyə şərtlərindən asılı olacaq. Başqa sözlə, geosiyasi marağın olması layihənin kommersiya uğuruna zəmanət vermir. Vaşinqtonun Ermənistanla əlaqələrini də inkişaf etdirməsi özlüyündə Azərbaycanla əməkdaşlığı zəiflətmir. Burada əsas məsələ ABŞ-ın regional tərəfdaşlarına münasibətdə ardıcıl və proqnozlaşdırıla bilən siyasət yürütməsi, nəqliyyat təşəbbüslərinə isə praktik meyarlarla yanaşmasıdır. Əks halda iqtisadi layihələrin geosiyasi rəqabətin bir hissəsinə çevrilməsi riski artacaq.

Azərbaycanın strateji maraqları və əməkdaşlığın potensialı

Azərbaycan üçün ABŞ-la münasibətlərin inkişafı xarici siyasətdə tərəfdaşların sayını artırmaq və müstəqil qərarvermə imkanlarını qorumaq baxımından əhəmiyyətlidir. Məqsəd mövcud regional və beynəlxalq əlaqələri əvəz etmək deyil, müxtəlif güc mərkəzləri ilə qarşılıqlı faydaya əsaslanan əməkdaşlığı genişləndirməkdir. Bu yanaşma Bakının danışıqlarda mövqeyini gücləndirə, ayrı-ayrı istiqamətlərdə yarana biləcək siyasi və iqtisadi risklərin təsirini azalda bilər.

İqtisadi sahədə əsas məqsəd enerji üzrə əməkdaşlığı daha yüksək əlavə dəyər yaradan fəaliyyətlərlə tamamlamaq olmalıdır. Xartiyada süni intellekt, məlumat mərkəzləri, kibertəhlükəsizlik, rəqəmsal əlaqələr və kritik mineralların tranzitinə yer verilməsi bu baxımdan diqqət çəkir. Bununla belə, imzalanan sənədlərin ölkə iqtisadiyyatına faydasını yalnız cəlb olunan sərmayənin həcmi ilə ölçmək düzgün deyil. Texnologiyanın mənimsənilməsi, yerli mütəxəssislərin hazırlanması, özəl sektorun rəqabət qabiliyyətinin yüksəlməsi və Azərbaycan şirkətlərinin layihələrdə iştirakı da nəzərə alınmalıdır.

Təhlükəsizlik sahəsində əməkdaşlıq da konkret layihələr əsasında genişləndirilə bilər. Xartiyada müdafiə əlaqələri, terrorçuluqla mübarizə, kibertəhlükəsizlik, mühüm infrastrukturun mühafizəsi və humanitar minatəmizləmə qeyd olunur. Bu istiqamətlərin hər biri ayrıca hüquqi, texniki və maliyyə mexanizmləri tələb edir. Eyni zamanda müdafiə sahəsində əməkdaşlıq niyyətini birbaşa təhlükəsizlik zəmanəti kimi qiymətləndirmək doğru olmaz.

Yeni siyasi və institusional mərhələ: niyyətdən nəticəyə

Donald Tramp administrasiyasının ikinci dövründə ikitərəfli münasibətlərdə konkret nəticələrə yönəlmiş yanaşma daha aydın görünür. 2025-ci ilin avqustunda Vaşinqtonda başlanan prosesin 2026-cı ilin fevralında Xartiyanın imzalanması ilə davam etməsi, iyunun 2-də isə Bakıda ilk Azərbaycan-ABŞ İqtisadi Dialoqunun

keçirilməsi bu xəttin ayrı-ayrı mərhələləridir. Dialoq zamanı nəqliyyat əlaqələri, investisiyalar, enerji, kritik minerallar və rəqəmsal infrastruktur məsələləri müzakirə edilib. Bu görüş institusional əməkdaşlığın genişləndiyini göstərsə də, onu artıq həyata keçirilmiş layihələrin nəticəsi kimi təqdim etmək qeyri - mümkündür. Xartiyanın əhəmiyyəti, ilk növbədə, işçi qruplarının yaradılması, layihələrin müəyyənləşdirilməsi və yol xəritələrinin hazırlanması ilə bağlı müddəalarında özünü göstərir. Növbəti mərhələdə hansı işin nə vaxt görüləcəyi, hansı qurumun cavabdeh olacağı və vəsaitin haradan təmin ediləcəyi aydınlaşdırılmalıdır. Nəticələri qiymətləndirmək üçün də konkret göstəricilərə ehtiyac var. Məsələn, daşınan yüklərin həcmi, logistika xərcləri, yeni investisiya öhdəlikləri, texnologiya üzrə birgə proqramlar və kadr hazırlığı siyasi bəyanatlardan daha dolğun mənzərə yarada bilər.

Son illərdə iki ölkə arasında ticarət göstəriciləri iqtisadi əlaqələrin genişləndiyinə işarə edir. Ancaq bu artımı yalnız Strateji Tərəfdaşlıq Xartiyası ilə əlaqələndirmək qeyri - dəqiq olardı. Mövcud məlumatlara əsasən, ABŞ-ın Azərbaycana mal ixracı 2025-ci ildə əvvəlki illə müqayisədə təxminən 54 faiz artaraq 394 milyon dollara yaxınlaşıb.[2] Digər statistikaya görə, 2026-cı ilin yanvar-avqust aylarında ABŞ-dan Azərbaycana ixrac 441 milyon dollar, Azərbaycandan ABŞ-a idxal isə 78,9 milyon dollar təşkil edib.[3]

Məhdudiyyətlər, risklər və mümkün inkişaf ssenariləri

İkitərəfli münasibətlərə təsir edən hüquqi amillərdən biri ABŞ-ın 1992-ci ildə qəbul etdiyi "Azadlığı Müdafiə Aktı"nın (FREEDOM Support Act) 907-ci düzəlişidir. Azərbaycan hökumətinə müəyyən yardım növlərinin göstərilməsini məhdudlaşdıran bu norma sonradan prezidentin müəyyən şərtlərlə onun tətbiqini dayandırmasına imkan verən mexanizmlə yumşaldılıb. 2025-ci il avqustun 8-də ABŞ Prezidenti həmin istisnanın müddətini uzadıb.[4] Bununla belə, məhdudiyyətin tətbiqinin müvəqqəti dayandırılması ilə qanunvericilikdən çıxarılması eyni deyil. 907-ci düzəlişin qüvvədə qalması münasibətlərin gələcəyi üçün qeyri-müəyyənlik yaradır və tərəfdaşlığın indiki inkişaf səviyyəsi ilə uzlaşmır. Bu məsələnin açıq qalması ABŞ-ın regiondakı uzunmüddətli maraqları baxımından da suallar doğurur. Azərbaycanla münasibətlərdə belə bir məhdudiyyətin saxlanılması Vaşinqtonun əməkdaşlığı dərinləşdirmək niyyəti ilə ziddiyyət təşkil edə bilər.

---

[2] https://ustr.gov/countries-regions/europe-middle-east/caucasus-region/azerbaijan

[3] https://www.census.gov/foreign-trade/balance/c4632.html?utm

[4] https://www.presidency.ucsb.edu/documents/presidential-determination-extension-waiver-section-907-the-freedom-support-act-with

Siyasi risklərin başında ABŞ daxilində qüvvələr nisbətinin dəyişməsi gəlir. 2026-cı il noyabrın 3-də keçiriləcək aralıq seçkilərdə Nümayəndələr Palatasının bütün 435 yeri və Senatın təxminən üçdə biri üzrə səsvermə baş tutacaq.[5] Seçkilərin nəticələri hələ məlum olmadığından onların Azərbaycan-ABŞ münasibətlərinə necə təsir edəcəyini qəti söyləmək mümkün deyil. Bununla belə, Konqresdə çoxluğun kimdə olması büdcə, parlament nəzarəti, yardım və ixrac siyasəti, həmçinin 907-ci düzəlişlə bağlı təşəbbüslərin taleyinə təsir göstərə bilər. Seçkilərdən sonra Ağ Evlə Konqres arasında qarşıdurma güclənərsə, administrasiyanın xarici siyasət təşəbbüsləri daha sərt nəzarət və büdcə məhdudiyyətləri ilə qarşılaşa bilər. Əks halda bəzi qərarların qəbulu asanlaşa bilər. Buna görə Bakı üçün münasibətləri təkcə prezident administrasiyası ilə təmaslar üzərində deyil, Konqres, işgüzar dairələr və ixtisaslaşmış qurumlarla əlaqələr əsasında qurmaq vacibdir.

İkinci risk regiondakı təhlükəsizlik vəziyyəti ilə bağlıdır. Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin və nəqliyyat əlaqələrinin açılmasının ləngiməsi, İran ətrafında gərginliyin yüksəlməsi, eləcə də Rusiya ilə Qərb arasındakı qarşıdurma investisiya qərarlarına və layihələrin maliyyələşdirilməsi şərtlərinə təsir göstərə bilər. Üçüncü risk ABŞ-ın siyasi gündəliyi ilə regiondakı strateji əməkdaşlıq prioritetləri arasında ziddiyyətlərin yaranması ehtimalıdır. Nəhayət, kommersiya riskləri də var: marşrutlara tələbat, tranzit tarifləri, maliyyə imkanları və texnoloji standartlar layihələrin rentabelliyini məhdudlaşdıra bilər.

Bu amillər nəzərə alınmaqla üç mümkün inkişaf ssenarisi göstərilə bilər. Əlverişli ssenaridə Xartiya əsasında konkret layihələr müəyyənləşdirilir, investisiyalar artır və hüquqi qeyri-müəyyənlik tədricən azalır. Orta ssenaridə yüksək səviyyəli siyasi dialoq davam edir, lakin əməkdaşlıq əsasən enerji, logistika və bəzi texnoloji layihələrlə məhdudlaşır. Mənfi ssenaridə isə ABŞ daxilində siyasi qarşıdurma, regiondakı gərginlik və ya layihələrin icrasındakı çətinliklər tərəfdaşlığın sürətini azaldır. Bunlar əlbəttə ki, qaçılmaz nəticələr deyil; hadisələrin mümkün gedişini qiymətləndirmək üçün nəzərdən keçirilən ehtimallardır.

Nəticə

ABŞ-Azərbaycan münasibətlərində yeni mərhələnin yaranması dəyişən beynəlxalq şəraitdə tərəflərin bir-biri üçün əhəmiyyətinin artması ilə bağlıdır. Azərbaycanın coğrafi mövqeyi, regional nəqliyyat əlaqələrində iştirakı və enerji sahəsində rolu ABŞ-ın təchizat zəncirlərini şaxələndirmək, Xəzər hövzəsi və Mərkəzi Asiya ilə əlaqələri genişləndirmək, regionda sabitliyi dəstəkləmək maraqları ilə müəyyən dərəcədə uzlaşır. Vaşinqtonla əməkdaşlığın inkişafı Bakı üçün də yeni investisiya və texnologiya

[5] Federal Election Commission. Election and Voting Information: federal election date 03.11.2026. https://www.fec.gov/introduction-campaign-finance/election-results-and-voting-information/

imkanları yarada, xarici siyasətdə manevr imkanlarını genişləndirə bilər. Bununla belə, münasibətlərin gələcəyini yalnız mövcud siyasi yaxınlıqla ölçmək olmaz. Xartiyada nəzərdə tutulan istiqamətlər real layihələr, davamlı maliyyələşmə və işlək əlaqələndirmə mexanizmləri ilə möhkəmləndirilməlidir. Hüquqi – siyasi sahədə 907-ci düzəlişlə bağlı qeyri-müəyyənliyin azaldılması, iqtisadi əməkdaşlıqdan ölkə daxilində əlavə dəyərin yaradılması və təhlükəsizlik sahəsində praktiki nəticələrin əldə edilməsi xüsusilə vacibdir. 2026-cı ilin noyabrında ABŞ-da keçiriləcək seçkilər də diqqətdə saxlanmalıdır. Seçkinin nəticəsi Vaşinqtonun Azərbaycan siyasətini təkbaşına müəyyən etməsə də, Konqresin yeni tərkibi tərəfdaşlığın hüquqi və büdcə əsaslarına təsir edə bilər. Bu səbəbdən əlaqələrin davamlılığı təkcə bir administrasiyanın siyasi iradəsindən deyil, müxtəlif səviyyələrdə qurulan institusional münasibətlərdən asılıdır. Azərbaycan üçün əsas məsələ ABŞ-la əməkdaşlığı milli maraqlara uyğun genişləndirərkən regional tarazlığı və müstəqil qərarvermə imkanlarını qorumaqdır.

Yekunda tərəfdaşlığın uğurunu səfərlərin və bəyanatların sayı deyil, razılaşmaların nə dərəcədə həyata keçirildiyi göstərəcək. İcraya başlanmış layihələr, aydın hüquqi qaydalar və davamlı institusional əlaqələr münasibətlərin real nəticəsini qiymətləndirmək üçün əsas meyarlar olacaq.

Müəllif: Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin şöbə müdiri